# Müdafiə Nazirliyi ilə "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC arasında anlaşma memorandumu imzalanıb





"ADEX-2024" və "Securex Caspian" sərgiləri çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair anlaşma memorandumu imzalanıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, memorandum qurumlar arasında öz səlahiyyətləri daxilində fəaliyyət sahələrinə uyğun olaraq qarşılıqlı faydalı, uzunmüddətli, səmərəli əlaqələrin qurulması və inkişafı üçün əməkdaşlıq etmək, həmçinin bu istiqamətdə koordinasiyalı fəaliyyətlərin təşkili məqsədi daşıyır.

Azərbaycan. - 2024.- 27 sentyabr (№ 211).- S.2.